# ƏYLƏN, GƏLİN




Ay gəlin, evlər ayrıdır, əylən gəlin, əylən gəlin,  
Bizim elin adətini öyrən gəlin, öyrən gəlin.  
Ay bu gecə ay doğacaq, əylən gəlin, əylən gəlin.  
Ay bacılar oynayacaq, öyrən gəlin, öyrən gəlin.  
Ay ata evi dar olar, əylən gəlin, əylən gəlin,  
Ay qaynanalar kar olar, öyrən gəlin, öyrən gəlin.  
Ay qayğına qalmasalar, əylən gəlin, əylən gəlin,  
Ay sənə baxan yar olar, öyrən gəlin, öyrən gəlin.  
Ay gəlin var işsiz durar, əylən gəlin, əylən gəlin,  
Ay gəlin var evlər qurar, öyrən gəlin, öyrən gəlin.